# SOCAR-AQŞ NEFTÇİLƏR GÜNÜNÜ TƏNTƏNƏ İLƏ QEYD ETDİ

SOCAR-AQŞ 20 sentyabr Neftçilər Günü münasibəti ilə "Bakı Nobel İrsi Fondu"nda xüsusi tədbir keçirmişdir. Mərasimdə müəssisənin inkişafında göstərdikləri xüsusi xidmətlərinə görə bir qrup əməkdaş müəssisə rəhbərliyi tərəfindən Fəxri Fərmanla təltif olunmuş və onlara xatirə hədiyyələri təqdim edilmişdir.

Bununla yanaşı, SOCAR-AQŞ neft-qaz mühəndisliyi ixtisası üzrə təhsil alan Bakı Ali Neft Məktəbinin və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin sonuncu kurs tələbələri Eltun Sadıqov və Azad Xankişiyevə müəssisənin 2015-2016-cı tədris ili üçün nəzərdə tutulan Tələbə Təqaüdünün verilməsi qərarını açıqlayıb. Tədrisdə yüksək nailiyyət, nümunəvi davranış göstərən hər iki tələbə müəssisə tərəfindən təşkil olunmuş müsabiqəni uğurla keçərək SOCAR-AQŞ təqaüdünün qalibi olmaq şansını əldə etmişlər.

Tədbirdə Azərbaycan Respublikası Milli Məclisinin deputatları, təhsil və sənaye müəssisələrinin rəhbərləri və beynəlxalq neft-qaz şirkətlərinin məsul əməkdaşları iştirak etmişdirlər.

Tədbirdə çıxış edən Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov bildirdi ki, SOCAR-AQŞ yarandığı gündən gənc milli kadrların hazırlanması məsələsinə xüsusi həssaslıqla yanaşır. ‘‘Bu gün gələcəyin 2 qazma mühəndisinə Tələbə Təqaüdün verilməsi qərarının açıqlanması hər bir yerli müəssisə üçün örnək olmalıdır. Bu cür layihələr gəncləri həvəsləndirir, onları daha məsuliyyətli olmağa sövq edir və ən əsası işlə təmin olunmaq ehtimallarını çox asanlaşdırır''.

Daha sonra Milli Məclisin deputatı, YAP Siyasi şurasının üzvü, partiyanın Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı çıxış edərək bildirdi ki, yerli müəssisələrin inkişafı bizləri sevindirməyə bilməz. "SOCAR-AQŞ-nin timsalında biz əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş milli neft strategiyasının bəhrələrini görürük. Müəssisənin milli qazma sənayesinə verdiyi töhfələr bizdə çox xoş təəssürat yaratdı. Bununla yanaşı, bu gün 2 gənc tələbəyə verilən qiymət, onların bilik və bacarıqlarının artırılması və gələcəkdə peşəkar kadr kimi yetişmələri üçün SOCAR-AQŞ-nin atdığı addım çox təqdirəlayiqdir".

Sonda çıxış edən SOCAR-AQŞ-nin Baş direktoru Ramin İsayev bildirdi ki, SOCAR-AQŞ işçilərini özünün əsas sərvəti hesab edir. "Müəssisə yarandığı ilk illərdən indiyə kimi Azərbaycan qazma sənayesinin inkişafına önəmli töhfələr verir. Eyni zamanda milli qazma müəssisələri sırasında yeniliklərə imza atan, yeni texnika və texnologiyaların uğurlu tətbiqi ilə daim öndə olmağı özünün prioriteti hesab edən SOCAR-AQŞ uğurlarını məhz peşəkar və təşəbbüskar kadr potensialının hesabına reallaşdırır. Müəssisə rəhbərliyi kadrların inkişafını daim diqqətdə saxlayır, onların bilik və bacarıqlarının artırılması üçün səylərini gücləndirir və eyni zamanda müəssisənin inkişafında göstərdikləri xüsusi xidmətlərini hər zaman qiymətləndirir".

Qeyd edək ki, Neftçilər Günü münasibətilə müəssisə əməkdaşları milli neft-qaz strategiyasının dahi müəllifi ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək ulu öndərin əziz xatirəsini yad etmişlər.

Həmçinin, müəssisənin əməkdaşları üçün Heydər Əliyev Fondunun dəstəyi ilə ərsəyə gələn "Hədəf Bakıdır" sənədli filminin təqdimatı olmuşdur. İkinci Dünya Müharibəsinin gedişatına əhəmiyyətli dərəcədə təsir edən Azərbaycan neftçilərinin əzmkarlığı və şücaəti gənc nəslin xatirəsində daim yaşayacaqdır.

**M.MİRZƏ,**
**"Respublika".**